# CƏMİYYƏTİN MAARİFLƏNMƏSİNDƏ KİTABXANALARIN ROLU

***Aytən Cəbrayıl qızı Musayeva***

*AMEA Məhəmməd Füzuli ad. Əlyazmalar İnstitutu,*
*laborant*
*Səbail rayonu, İstiqlaliyyət küç.26*
*ayten.musa88@gmail.com*

***Açar sözlər:*** *Azərbaycan ədəbiyyatı, Azərbaycan mədəniyyəti, kitab, kitabxana, cəmiyyət, elm*
***Ключевые слова:*** *Азербайджанская литература, азербайджанская культура, книга, библиотека, общество, наука*
***Keywords:*** *Azerbaijani literature, Azerbaijani culture, book, library, society, science*

**Xülasə:** Azərbaycan xalqının maariflənməsində kitabxanaların rolunun və əhəmiyyətinin olduqca böyük olması cəmiyyətin mənəvi, iqtisadi və siyasi şəraiti ilə, mədəniyyət və maarifçilik səviyyəsi ilə sıx əlaqədə olmasını labüd edirdi. Belə ki, maarifin, elmin, xalqın intellektual imkanlarının inkişafında kitabxanaların xidməti çox böyük idi. Elmin, cəmiyyətin, kitabxana işinin qarşılıqlı əlaqəsi nəticəsində respublikamızda kitabxana işi tarixinin və nəzəriyyəsinin problemləri üzrə çox böyük uğurlar əldə olunmuşdur. Azərbaycanda müasir kitabxanaların mahiyyəti və məqsədi cəmiyyətin inkişafı və xalqın maariflənməsidir. Ümummilli lider Heydər Əliyev respublikamızda kitabxana işinin iqtisadi, təsərrüfat və ideoloji vəzifələrinin həlli istiqamətində çox mühüm işlər görmüşdür. Onun tapşırıqlarına əsasən kitabxanaşünaslığın ümumnəzəri və metodoloji problemlərinin işlənilməsi, kitabxanaların sosial funksiyalarının inkişafının araşdırılması, əhalinin mütaliə mədəniyyətinin formalaşması kimi məsələlər öz həllini tapmışdır. Azərbaycanın böyük kitabxanalarının tarixi elmin və cəmiyyətin inkişafı ilə birbaşa əlaqəlidir.

**Резюме**: Огромная роль и значение библиотек в просвещении азербайджанского народа обусловили их тесную связь с духовным, экономическим и политическим состоянием общества, а также уровнем культуры и просвещения. Таким образом, заслуга библиотек в развитии образования, науки и интеллектуальных возможностей народа была огромна. В результате взаимодействия науки, общества и библиотечного дела в нашей республике достигнуты большие успехи в проблемах истории и теории библиотечного дела. Суть и цель современных библиотек в Азербайджане – развитие общества и просвещение народа. Общенациональный лидер Гейдар Алиев проделал очень важную работу в решении экономических, финансовых и идеологических задач библиотечного дела нашей республики. На основе его поручений решались такие вопросы, как разработка общетеоретических и методологических проблем библиотековедения, изучение развития социальных функций библиотек, формирование читательской культуры населения. История великих библиотек Азербайджана напрямую связана с развитием науки и общества.

**Summary:** The great role and importance of libraries in the education of the Azerbaijani people necessitated their close connection with the spiritual, economic and political conditions of society, with the level of culture and enlightenment. Thus, the service of libraries in the development of education, science, and the intellectual capabilities of the people was very great. As a result of the interaction of science, society, and library work, great successes have been achieved in our republic on the problems of the history and theory of library work. The essence and purpose of modern libraries in Azerbaijan is the development of society and the enlightenment of the people. National leader Heydar Aliyev has done very important work in solving the economic, economic and ideological tasks of library work in our republic. Based on his instructions, issues such as the development of

general theoretical and methodological problems of library science, the study of the development of the social functions of libraries, and the formation of the reading culture of the population have been resolved. The history of the great libraries of Azerbaijan is directly related to the development of science and society.

Azərbaycanda kitabxana işinin tədqiqatçıları elmi-tədqiqat məqalələrində Azərbaycanda kitabxana işinin tarixi, kitabxanaların qabaqcıl iş təcrübəsi və müasir problemləri haqqında mövzulara geniş şəkildə yanaşmışdırlar. Ölkəmizdə mədəniyyət, kitabxanaçılıq, kitabçılıq işlərinə həsr olunmuş kitablar və məqalələr yüzlərlədir. Azərbaycanda kitabxana işinin tarixinin qədimliyi bu sahənin cəmiyyət ilə əlaqəsini daha da dərinləşdirmişdir. Azərbaycanda kitabxana işinin tarixinin qədimliyi ölkədəki elmi ictimaiyyətin maarifə olan böyük rəğbətinin göstəricisi idi. Azərbaycanda kitabxana işinin inkişafı birbaşa olaraq elm və cəmiyyətin inkişafı, xalqın maariflənməsi demək idi. Respublikamızda elm, kitabxana, cəmiyyət bir-biri ilə qarşılıqlı əlaqədə inkişaf etdiyi üçün əhəmiyyətli dərəcədə bu sahədə irəliləyişlərə nail olunmuşdur. Azərbaycan xalqının maariflənməsində kitabxanaların rolunun və əhəmiyyətinin olduqca böyük olması cəmiyyətin mənəvi, iqtisadi və siyasi şəraiti ilə, mədəniyyət və maarifçilik səviyyəsi ilə sıx əlaqədə olmasını labüd edirdi. Belə ki, maarifin, elmin, xalqın intellektual imkanlarının inkişafında kitabxanaların xidməti çox böyük idi. Elmin, cəmiyyətin, kitabxana işinin qarşılıqlı əlaqəsi nəticəsində respublikamızda kitabxana işi tarixinin və nəzəriyyəsinin problemləri üzrə çox böyük uğurlar əldə olunmuşdur. Azərbaycanda müasir kitabxanaların mahiyyəti və məqsədi cəmiyyətin inkişafı və xalqın maariflənməsidir. Ümummilli lider Heydər Əliyev respublikamızda kitabxana işinin iqtisadi, təsərrüfat və ideoloji vəzifələrinin həlli istiqamətində çox mühüm işlər görmüşdür. Onun tapşırıqlarına əsasən kitabxanaşünaslığın ümumnəzəri və metodoloji problemlərinin işlənilməsi, kitabxanaların sosial funksiyalarının inkişafının araşdırılması, əhalinin mütaliə mədəniyyətinin formalaşması kimi məsələlər öz həllini tapmışdır. Azərbaycanın böyük kitabxanalarının tarixi elmin və cəmiyyətin inkişafı ilə birbaşa əlaqəlidir. Ölkəmizdə hərtərəfli inkişaf etmiş kitabxana şəbəkələrinin formalaşması nəticəsində elmin müxtəlif sahələrində böyük nailiyyətlər əldə olunmuşdur.

Knyaz Aslan "Milli kitabxanaşünaslıq sahəsinin iftixarı" məqaləsində elm adamlarının kitabxana sahəsinin inkişafındakı xidmətlərini geniş şəkildə şərh etmişdir. "Professor A.Xələfov Azərbaycanda kitabxanaşünaslıq elmi sahəsində yüksək səviyyəli elmi-pedaqoji kadrların hazırlığında əvəzsiz rol oynamışdır. O, kitabxanaşünaslıq və mədəni quruculuq sahəsində geniş tədqiqatlar aparan, onu yeni müddəalar və elmi biliklərlə zənginləşdirən, xarici ölkələrdə tanınan və qiymətləndirilən elmi məktəb yaratmağı bacarmışdır. Demək olar ki, respublikamızda fəaliyyət göstərən bütün kitabxanaşünas-biblioqraf və kitabşünas alimlər bu məktəbin - Abuzər Xələfov elmi məktəbinin yetişdirməsidir. Onun elmi rəhbərliyi ilə ölkəmizdə kitabxanaşünaslıq sahəsində 1 elmlər doktoru və 20-yə yaxın fəlsəfə doktoru dissertasiya işi yazaraq müdafiə edilmişdir. Professor eyni zamanda, Azərbaycanda və xarici ölkələrdə 30-dan çox gənc alimin hazırlanmasında elmi məsləhətçi və ya opponent kimi xüsusi fəallıq göstərmişdir. A.Xələfov uzun illər ərzində Moskva şəhərində fəaliyyət göstərən doktorluq dissertasiyalarının müdafiəsi üzrə vahid ixtisaslaşdırılmış şuranın üzvü kimi də səmərəli fəaliyyət göstərmişdir. O, həmçinin başqa ölkələrdə mədəniyyət, kitabxana işi quruculuğu, kitabxanaşünaslıq tarixi və nəzəriyyəsi problemləri üzrə müdafiə edilmiş bir çox namizədlik və doktorluq dissertasiyalarının opponenti, yaxud müdafiə şuralarının üzvü kimi milli kitabxanaşünaslıq elmimizi uğurla təmsil etməyi bacarmışdır" [4, s.10].

Azərbaycanda kitabxana mədəniyyətinin inkişaf dinamikası onu göstərir ki, Azərbaycanın elm sahələrinin və cəmiyyətin həyatının bütün cəhətləri qarşılıqlı əlaqədədir. Kitabxana işinin inkişafı Azərbaycan elmi və mədəniyyəti ilə sıx əlaqədə olaraq, cəmiyyətin siyasi, iqtisadi və mədəni həyatının ayrı-ayrı sahələrində baş verən proseslər fonunda formalaşmışdır. Azərbaycanda kitabxana işinin inkişafının elmi əsaslarının və təcrübi metodlarının araşdırılaraq öyrənilməsi nəticəsində cəmiyyətdə

kitabxana mədəniyyəti daha da inkişaf etdi. Azərbaycanda kitabxana şəbəkələrinin yerləşdirilməsi, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, kitabxana fəaliyyətinin metodik təminat sisteminin yaradılması və təkmilləşdirilməsi, kitabxanaçılıq təhsilinin inkişaf etdirilməsi kimi məsələlərin sistemli şəkildə həlli yollarının verilməsində Ümummilli lider Heydər Əliyevin rolu danılmazdır.

**Ədəbiyyat**

1. *Əliyev, Qabil*. Ümummilli lider Heydər Əliyev haqqında dəyərli elmi-tədqiqat əsəri: [Bakı Dövlət Universitetinin dosenti Rasim Süleymanovun yeni monoqrafiyası haqqında] / Q. Əliyev // Ədalət.- 2020.- 8 dekabr.- № 162.- S. 5.

2. Heydər Əliyev irsinin kitabxanalarda təbliği: respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Kitabxanası; tərt. L. Əhmədova; elmi red. K.M.Tahirov; red. A.Abdullayeva.- Bakı: Azərbaycan Milli Kitabxanası, 2018.- 53 s.

3. Xələfov, Abuzər Alı oğlu. Heydər Əliyev və Azərbaycanda kitabxana işi / A. A. Xələfov; elmi red. T. X. Musayeva; red.: K. İ. Aslan, L. A. Məmmədova.- Bakı: Azərnəşr, 2006.- 312 s.

4. Knyaz Aslan / Milli kitabxanaşünaslıq sahəsinin iftixarı / Azərbaycan.-2016.-18 dekabr-№ 281.- 10 s.

5. *Rasim Süleymanov*. Ulu Öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti: Monoqrafiya.- Bakı, 2020.- 360 s.